## ГЛАГОЛЬНЫЕ ФРАЗЕОЛОГИЧЕСКИЕ ЕДИНИЦЫ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

***Гусейнова Шахла Алекпер кызы***

***Резюме***

Фрезологические ассоциации во все времена были предметом исследования в языкознании. В. Виноградова, Н. Амосовой, А. Смирницкого, а также классографии фразеологических ассоциаций, а также фразеологических единиц английского языка. Классификация фразеологических единиц в современном английском языке основана, с одной стороны, на классических научных классификациях, а с другой - на основе существенных признаков современного английского языка. Особое место в этой классификации занимают фразеологические ассоциации глагола. Причиной этого является специфика английского языка.

***Rəyçi: f.ü.f.d. Əliyeva Kəmalə Rafiq qızı***
***Praktik xarici dillər kafedrasının 10 fevral 2023-cü il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarixi 20 fevral 2023-cü il***

**UOT:81.**

## DİL TƏLİMİ PROSESİNDƏ KOMMUNİKATİV, LİNQVİSTİK, KULTUROLOJİ BACARIQLARIN FORMALAŞDIRILMASI

***dosent Quliyeva Tahirə Abdurəhman qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Dil normaları üçün ölçü olan yüksək mədəni nitq böyük istedad və mütəmadi vərdiş hesabına yaranır və məntiqli, səlis, aydın danışığa istiqamət verir. Bu isə şəxsiyyətin özünüifadəsində, dilə hansı səviyyədə yiyələnməsimdə vacib şərt sayılır və düşüncələrin ədəbi dil normalarına uyğun verilməsinə geniş imkanlar açır. Müəllim kurs boyu şagirdlərin mədəni nitq haqqında hansı bilik və bacarıqlara yiyələndikləri barəsində sorğu təşkil edir. Şagirdlər öz münasibətlərini bidirirlər. Müəllim hər bir fərdin şəxsiyyət kimi formalaşmasında hansı amillərin önəmli əhəmiyyət kəsb etməsi ilə bağlı fikir mübadiləsi təşkil edir.*

**Açar sözlər:** dil təlimi, təhsil, bilik, bacarıqlar, norma, ünsiyyət, mədəniyyət, şəxsiyyətyönümlük
**Ключевые слова:** языковая подготовка, образование, знания, навыки, нормы, общение, культура, ориентация личности
**Key words:** language training, education, knowledge, skills, norms, communication, culture, personality orientation

Bugünkü qloballaşma, mədəniyyətlərarası proseslər dövründə Azərbaycanın beynəlxalq aləmə sıx inteqrasiyası şəraitində yüksək səviyyəli, savadlı kadrların yetişdirilməsində təhsilin roluna, təhsilalanın qazandığı bilik və bacarıqların keyfiyyətinə böyük diqqət yetirilməlidir. Yaddan çıxarmaq olmaz ki, "təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir" **(7).**

Hər bir fərdin şəxsiyyət kim formalaşmasında dil amili başlıca rol oynayır. Şəxsiyyətin özünüifadəsində isə dilə hansı səviyyədə yiyələnmə vacib şərt sayılır və düşüncələrin ədəbi dil normalarına uyğun verilməsinə geniş imkanlar açır. Deməli, nitq həm də insanın daxili

aləminin göstəricisidir. Bu istiqmətdə aparılan məşğələdə şagirdlər görkəmli şəxsisyyələrin dil, nitq, söz haqqındakı fikirlərindən nümunələr gətirməklə öz mövqelərini bildirirlər. Bunun üçün müəllim sinfi müvafiq kitab və vəsaitlərlə təchiz etməli, şagirdlərinə onlarla işləmək bacarığı aşılamalıdır.

Orta məktəblərdə Azərbaycan dili fənninin əsaslandirilmasi ilə bağli «milli kurikulum»da qeyd olunur ki, təlimdə «...düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqlarin mənimsənilməsi, lüğət ehtiyatının zənginləşdirilməsi, ...ədəbi tələffüz normalarinin öyrəninilib tətbiq olunmasi, ekspressiv nitq bacarıqlarinin formalaşdırılması, Azərbaycan xalqinin dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqinda ilkin anlayişlarin yaradilmasi təmin olunur». **(1. s, 3)**

Fənn proqramının (kurikulumunun) nitqin fəaliyyət növlərini özündə ümumiləşdirən “Dinləyib-anlama və danışma”, “Oxu”, “Yazı” və dilin linqvistik əsasları ilə bağlı ən zəruri bilik və bacarıqları nəzərdə tutan “Dil qaydaları” məzmun xətləri üzərində qurulması təlim prosesində kommunikatıv, linqvistik, kulturoloji səriştələr əldə etmiş şagird şəxsiyyətinin tərbiyə olunaraq müstəqil həyata hazırlanmasını önə çəkir.

Nəticəyönümlü, həyati mahiyyət daşıyan belə bir yanaşma ümumi təhsilin bütün siniflərləri, o cümlədən X-XI sinflər üçün işlənilmiş məzmun standartlarında yüksələn xətt ilə sadədən mürəkkəbə doğru əksini tapmışdır. Təmayül siniflərdə dərsdənkənar məşğələ kimi nəzərdə tutulmuş “Nitq mədəniyyəti” kursu da Azərbaycan dili təlimində qazanılmış bilik və bacarıqların praktik səviyyədə möhkəmlənməsinə, məntiqi və tənqidi təfəkkürə əsaslanan mədəni nitq qabiliyyətlərinin inkişafına xidmət edir. Tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük ümumi təhsilin müasir məzmununun didaktik əsasını təşkil edir. Yeni çərçivə sənədi bu prinsiplərin üzərində qurulur **(4).**Sənəd öz məzmununda ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində (ibtidai, əsas, orta) tədris olunan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, şagird nailiyyətlərinin qiymətləndirilməsi, fənn kurrikulumlarının strukturunu əhatə edir.

Azərbaycan dili təliminin qarşısında duran ən başlıca vəzifə dil haqqında elmin müxtəlif bölmələrinin əsas sahələrini tədqiq etmək, ən mühüm, zəruri normaları, qayda və qanunları öyrətməklə yanaşı şagirdlərin dərketmə, düşünmə və fikrini anlama qabiliyyətini inkişaf etdirməkdir **(6).**

Orta məktəb şagirdlərinin şifahi nitqi üzərində aparilan müşahidələrdən aydin olur ki, onlarin əksəriyyətinin oxusu və danişiği müasir tələblərə cavab vermir. Monotonluq, süstlük, həddindən artiq və ya aşaği sürətlə danişmaq, oxumaq, diksiyanin pozulmasi, kitab tələffüzü, intonasiyaca kasibliq, ifadəlilik yaradan fonetik, leksik, qrammatik normalara əməl olunmaması və s. müşahidə olunur.Bu qüsurlar, ilk növbədə, şagirdlərin nitqinin ifadəliliyi üzərində məqsədəuyğun və sistemli iş aparilmaması ilə bağlidir. Nitq mədəniyyəti elmi tədris fənni kimi normadan alınan dil haqqında məlumata əsaslanır. Son zamanlar orta və ali məktəblərimizdə nitq mədəniyyətinin tədrisinə xüsusi diqqət yetirilir. Bu müasir dövrümüzdə, xüsusən, vacib və zəruri məsələlərdəndir.Çünki dilimizin, mədəniyyətimizin, mənəvi həyatımızın çiçəklənməsinə real imkanlar yarandığı indiki dövrdə xalqımıza yüksək ixtisaslı ziyalılar daha çox lazımdır. Tədris müəssisələrində nitq mədəniyyəti və üslubiyyatın öyrədilməsi, ifadəli danışıq və düzgün yazı vərdişləri qazanılmasında Nitq mədəniyyətinin mövzusu bütövlükdə, şifahi və yazılı dilin norma problemlərindən ibarətdir. Nitq mədəniyyəti baxımından fonetik norma odur ki, ədəbi dildəki danışıq səslərinin hamısı bu dilin bütün daşıyıcıları üçün ümumi olsun. Fonetik normanın ümumiliyi həm şifahi nitqin, həm də yazının vahidliyi prinsipi üçün zəruri şərtlərdəndir.

Nitq mədəniyyətində leksik normaların müəyyənləşməsinin də çox böyük əhəmiyyəti vardır. Leksika dilin gündəlik materialı olduğuna görə onda dəyişmələr də tez-tez baş verə bilir.mənaca köhnəlib arxaiqləşən sözlər fəaliyyətdə olan dil üçün

norma deyildir. Çünki onlar başa düşülmür, heç bir ciddi əhəmiyyət daşımır. Ədəbi dilin norması hər hansı əcnəbi sözü işlətməyə yol vermir.

Dildə mövcud qanunauyğunluqlar əsasında sözlər müəyyən tərkib hissələrdən ibarət olur.Bu hissələr morfoloji kateqoriyalara əsaslanır və morfoloji normaların məcmusu hesab olunur. Morfoloji normalara sözlərin müəyyən hal, kəmiyyət, mənsubiyyət, şəxs, zaman və s. şəkilçilər qəbul etməsi, şəkilçilərin ahəng qanununa uyğun olaraq söz köklərinə artırılması və s. daxildir.(**3, s.146)**

Nitq mədəniyyətinin inkişafında, ədəbi dil normalarına düzgün əməl olunmasında, orfoqrafiya və orfoepiya qaydalarının düzgün tətbiqində məktəbin, kütləvi informasiya vasitələrinin (radio və televiziya verilişlərinin, dövrü mətbuat, kino, teatr), bədii və elmi əsərlər və tərcümə ədəbiyyatının, mütaliənin rolu böyükdür.

Mətbuat və tədris müəssisəiəri arasında qırılmaz mənəvi körpü var. Şagird və tələbələr Azərbaycan dilinin qayda-qanunlarını təkcə dərslik və qrammatikalardan yox, mətbuat vasitələri ilə də öyrənirlər. Azərbaycan dilinin orfoqrafiya və orfoepiya normalarının öyrənilməsində, mənimsənilməsində və yayılmasında bunlar həlledici rol oynayır.

Şifahi dilin normaları fonetik hadisə və qanunlarda, o cümlədən sözlərin, şəkilçilərin, söz birləşməsi və cümlələrin tarixən formalaşma proseslərində əks olunur. Yazılı dilin normalarına isə müasir proseslər də daxildir. Buraya, hər şeydən əvvəl, qoşasaitli və qoşasamitli sözlərin, morfoloji vahidlərin, abreviaturların, həmçinin sözlərin yazılışındakı mətni normalar (böyük-kiçik hərflər, sətirdən-sətirə keçid, durğu işarələri, bitişik və ayrı yazılmaq), alınma sözlərdə unifikasiya normaları, leksik-terminoloji vahiidlərdə alınma və əvəzetmə normaları, o cümlədən sintaktik konstruksiyalarda ardıcıllıq normasına aiddir **(2,s.6).**

Nitq insanın daxili aləminin göstəricisidir. Dil normaları üçün ölçü olan yüksək mədəni nitq böyük istedad və mütəmadi vərdiş hesabına yaranır və məntiqli, səlis, aydın danışığa istiqamət verir. Bu isə şəxsiyyətin özünüifadəsində, dilə hansı səviyyədə yiyələnməsimdə vacib şərt sayılır və düşüncələrin ədəbi dil normalarına uyğun verilməsinə geniş imkanlar açır. Müəllim kurs boyu şagirdlərin mədəni nitq haqqında hansı bilik və bacarıqlara yiyələndikləri barəsində sorğu təşkil edir. Şagirdlər öz münasibətlərini bidirirlər. Müəllim hər bir fərdin şəxsiyyət kimi formalaşmasında hansı amillərin önəmli əhəmiyyət kəsb etməsi ilə bağlı fikir mübadiləsi təşkil edir. Məşğələnin əsas ideyası mədəni nitqin insanın ictimai və şəxsi həyatında oynadığı mühüm rolun müəyyənləşməsi ilə əlaqələndirilir. Söylənilən fikir və mülahizələr şagirdlərin ümumi inkişafını xarakterizə edir. Müəllim qrup üzvlərinə kursun əhəmiyyəti, burada qazanılan bacarıqlar, səriştələr barəsində bir qəzet nömrəsi hazırlamağı tapşırır.

Müəllim kursun məzmun və formaca təkmilləşdirilməsi yolları haqqında şagirdlərin baxışlarını, təklif və rəylərini öyrənir. Yeni tədris ilində onlara uğurlar arzulayır və daim düşünərək danışmağı, nitqlərinə nəzarət etməyi tapşırır.

Ümumi mədəniyyətin tərkib hissəsi kimi nitq mədəniyyətinə yiyələnməyin hər bir vətəndaş qarşısında qoyulmuş mühüm tələb olduğu açıqlanmalıdır. Şəxsiyyətin ictimai həyatda nüfuz qazanmasında, davranışında, özünü ifadə etməsində mühüm rol oynayan mədəni nitq amilini təmin edən cəhətlər (düzgünlük, dəqiqlik, aydınlıq, ifadəlilik, təmizlik, zənginlik, yığcamlıq və s.) üzərində dayanılmalı, gözəl nitqə yiyələnməyin faydası barəsində söylənilmiş müdrik kəlamlar, hikmətli deyimlər xatırlanmalı, müzakirə edilməlidir.

Müzakirələr qruplar arası dialoq şəklində də aparıla bilər. Bu zaman görkəmli söz ustalarının, dilçi alimlərin, ictimai xatimlərin əsərlərindən götürülmüş nümunələrə istinad edilməlidir. Müəllim müzakirə prosesini izləməli, ona lazımi istiqamət verməli, yeri düşdükcə, mədəni nitqə yiyələnməyin faydası ilə bağlı deyilmiş sitatlar gətirməklə fikir mübadiləsini dolğunlaşdırmalıdır.

Müəllim məşğələni bir nitq nümunəsinin səsləndirilməsi ilə başlaya bilər. Şagirdlər dinlədikləri nümunəni xüsusiyyətlərinə görə səciyyələndirib fikir və mülahizələrini bölüşürlər. Müəllim sinfin diqqətini mədəni nitqə verilən tələblərə yönəldərək şagirdlərinə nitqin düzgünlüyü və dəqiqliyi üzərində ayrıca dayanmağı məsləhət görür. İrəli sürülən hər bir fikir qeydə alınır və yekunda nitqin düzgünlüyünü şərtləndirən amillər: dilin fonetik, leksik və qrammatik normaları, nitqdə səbəb-nəticə əlaqəsinin gözlənilmə ardıcıllığı, fakt və hadisələrin həqiqiliyi,inandırıcılığı və s. müəyyənləşdirilir və konkrett nümunələrlə əsaslandırılır.Dərslikdə ***Azərbaycan dili – milli varlığımız və əvəzsiz mənəvi sərvətimizdir*** mövzusina 1 saat ayrılmışdır. Belə məşğələləri disput şəklində aparıla bilər. Mövzu elan edildikdən sonra şagirdlərin müvafiq mənbələr, xüsusilə də "Azərbaycan dili" haqqında verilmiş dövlət fərmanları ilə tanış olmalarına, onlar üərində iş aparmalarına vaxt ayrılmalıdır. Bundan sonra hər bir şagird Azərbaycan dili haqqında təəssüratlarını yoldaşaları ilə bölüşməlidir. Müəllim çalışmalıdır ki, söylənilən fikirlər bir-birinin məntiqi davamı kimi irəli sürülsün, təkrar xarakteri daşımasın. Fikirlərin çevik və aydın ifadəsi, dil normalarına uyğunluğu nəzarətdə saxlanılmalıdır. Lakin hər bir şagirdə fikrini ifadə etmək imkanı yaradılmalıdır. Yanlış fikr və mülahizələrə, nöqsanlı nitqə digər şagirdlərin özləri münasibət bildirməli, düzəlişlər edilməlidir. Bu cür yanaşma həm Azərbaycan dili haqqında şagird bilikərinin dərinləşməsinə, həm də təcrübi əsasda nitq qabiliyyətlərinin, müzakirələrdə iştirak etmək mədəniyyətlərinin fortmalaşmasına zəmin yaradır. Mədəni nitqi korlayan amillər sırasında yersiz işlədilən alınma sözlər, dialekt sözlər, vulqarizmlər ayrıca qeyd edilir. Məşğələ zamanı verilmiş hər hansı bir mövzu ilə bağlı (məsələn: ***"Xeyirxahlıq nədir?", "Təvazökarlıq yüksək insani keyfiyyətdir"*** və s.) çıxış hazırlamaq və onu şifahi şəkildə təqdim etmək tapşırığı verilir.

Nitqdə sinonimlərdən, antonimlərdən, məcazlardan, frazeoloji birləşmələrdən, aforizmlərdən yerli-yerində istifadə nitqin zənginliyindən xəbər verir. Belə bir nəticəyə gəlinir ki, nitqin zənginliyi natiqin dünyagörüşündən, mütaliə qabiliyyətindən, dilimizin söz ehtiyatına bələdlik səviyyəsindən çox asılıdır. Nitqin zənginliyi həm də intonasiyaya düzgün riayət edilməsi ilə əlaqəlidir. Cəsin tembrindən, tonundan, fasilədən, vurğudan faydalanmaq dinləyicilərin natiqə diqqətlə qulaq asmalarını təmin edən vasitələrdəndir. Ən əsası, nitqin zənginliyi nitqin dolğun məzmunda olması ilə şərtlənir.

***"Sağlam həyat tərzi"*** - Müasir gənclər üçün sosial maraq doğuran məşğələ mətnin dinlənilməsi üzərində qurulur. Mətnin strukturu belə bir sxemə uyğun olmalıdır:

***→ fikir və mülahizələri əks etdirən tezislər → onları faktlarla arqumentləşdirən şərhlər → yekun nəticələr.***

Müzakirə mərhələsində mövzunun aktualllığı, cəmiyyət üçün nə dərəcədə faydalı olması məsələləri açıqlanır. Daha sonra müəllim diqqəti mövzunun ifadə olunduğu mətnə yönəldir. Mətnin bitkinliyini təmin edən vasitələr: məna və kompozisiya bütövlüyü, mətnini hissələri: giriş, əsas (inkişaf) və nəticə hissəsi üçün səciyyəvi cəhətlər təhlilə cəlb edilir. Həmçinin mətnin tərkib hissələrini bağlayan vasitələr üzərində dayanılır. Bundan əlavə, mətndə əsas fikrin çatdırılmasında mühüm rol oynayan açar sözlər, aparıcı ideyaları ifadə edən cümlələr araşdırılır. Müzakirə prosesindən sonra konkret vaxt müddəti ərzində eyni və ya yaxın bir mövzuda yazılı bir mətn hazırlamaq tapşırılır. Daha tez yekunlaşdırılan 1-2 təqdimat dinlənilir və bütün siniflə təhlil edilir. Bundan sonra şagirdlərin maraq dairəsində olan hər hansı bir mövzu ilə bağlı (məsələn, ***"Yaşlılara qayğı hamının borcudur"***) söyləyəcəkləri nitqin planı tutdurularaq təhlil edilir. Şagirdlər artıq Azərbaycan dili dərslərində üslub, növləri və onları səciyyələndirən xüsusiyyətlər haqqında müəyyən biliklər əldə etmişlər. Müəllim həmin bilgilərə stinad etməklə müxtəlif nitq situasiyalarında üslubi amillərin nəzərə alınması məsələlərinə toxunur və təqdim etdiyi mətn nümunələrinin (imkan olarsa, səs yazılarının) hansı üsluba aid olduğunu müəyyənləşdirməyi tapşırır. İş qruplarla iş

formasında yerinə yetirilməlidir. Belə ki, bədii, publisistik, elmi, məişət, rəsmi üsluba aid mətn nümunələri üçün xarakterik cəhətlər şagirdlərin özləri tərəfindən müəyyənləşdirilir.

Müəllim şifahi və yazili nitq normaları üzrə iş apaparkən Ulu öndər Heydər Əliyevin çığışlarından biri üzərində də qura bilər. Səs yazısısı və ya videogörüntülər dinlənildikdən sonra müasir dövrün siyasi liderlərindən biri kimi Heydər Əliyevin nitqini səciyyələndirən xarakterik cəhətlər şagirdlər tərəfindən qeydə alınır və şərh olunur. Bu zaman səsin tempri, natiqin söz seçimi, mimika və jestləri, auditoriyanın səviyyəsi, emosional durumu kimi mühüm amillər ayrıca götərilməlidir. Müəllim şagirdlərin fikir axınını istiqamətləndirməli, onları düzgün mühakimə yürütməyə sövq etməlidir. Məşğələnin sonunda siyasi natiqliyə xas cəhətlər ümumiləşdirilməlidir. Bu da müəllimə ilboyu keçirlən məşğələnin şagirdlərin mədəni nitq bacarıqlarının inkişafına nə dərəcədə təsir etdiyini müəyyənləşdirməkdə kömək edə bilər.

***Ədəbiyyat***

1.Azərbaycan Respublikasinda ümumi təhsilin konsepsiyasi (milli kurikulum). «Kurikulum»,2008,№ 1 2.M.Yusifov.Nitq mədəniyyətinin əsasları.Bakı ,“Mütərcim”,1998
3.Süleyman Hüseynov. Nitq mədəniyyəti.Dərslik.Bakı , 2010
4. Azərbaycan Respublikasında «Ümumi Təhsilin Konsepsiyası», «Azərbaycan məktəbi» , 2007, №2.
5. A.Mehrabov. Təhsil prosesinin metodoloji problemləri. TPİ-nin Elmi əsərləri, 2008, №3.
6. 2017-2018-ci dərs ilində tam orta təhsilin təmayüllər üzrə təşkil olunduğu ümumi təhsil müəssisələrinin X sinifləri üçün “Nitq mədəniyyəti” fakültativ kurs PROQRAM. Bakı -2017
7. (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan” qəzeti, 25 oktyabr 2013-cü il.)

**ФОРМИРОВАНИЕ КОММУНИКАТИВНЫХ, ЯЗЫКОВЫХ, КУЛЬТУРОЛОГИЧЕСКИХ НАВЫКОВ В ПРОЦЕССЕ ЯЗЫКОВОЙ ПОДГОТОВКИ**

***Кулиева Тахира Абдуррахман кызы***

***Резюме***

Высококультурная речь, являющаяся мерилом языковой нормы, создается благодаря большому таланту и регулярной привычке и приводит к логичной, беглой, ясной речи. Это считается важным условием самовыражения личности, на каком уровне я владею языком, и это открывает широкие возможности для выражения мыслей в соответствии с нормами литературного языка. В ходе курса преподаватель организует опрос о том, какие знания и умения приобрели студенты о культурной речи. Студенты прекращают свои отношения. Педагог организует обмен мнениями о том, какие факторы важны в формировании каждого человека как личности

**FORMATION OF COMMUNICATIVE, LINGUISTIC, CULTURAL SKILLS IN THE PROCESS OF LANGUAGE TRAINING**

***Guliyeva Tahira Abdurahman***

***Summary***

High cultured speech, which is a measure for language norms, is created due to great talent and regular habit and leads to logical, fluent, clear speech. This is considered an important condition for the self-expression of the personality, at what level I master the language, and it opens up wide opportunities for expressing thoughts in accordance with the norms of the literary language. During the course, the teacher organizes a survey about what knowledge and skills the students have acquired about cultural speech. Students end their relationships. The teacher organizes an exchange of ideas about which factors are important in the formation of each individual as a personality.

***Rəyçi: dosent Hüseynova Gülrux***
***Azərbaycan dili kafedrasının 15 mart 2023-cü il tarixli iclasın 14 saylı protokolu***
***Daxil olma tarixi 16 mart 2023-cü il***